Sürətli xətt izləyən kateqoriyası:

1. Robot 20x25 sm qutunun içinə rahatlıqla yerləşməlidir. Əks halda robot diskvalifikasiya olunacaq.

2. Robotun hündürlüyü 50mm çox olmamalıdır. Çəki məhdudiyyəti yoxdur.

3. Robotlar 2 qrup olaraq yarışacaq.

4. Qruplar püşkatma ilə seçilir.

5. Robotun üzərinə yarışı başlamaq və bitirmək üçün məsafə sensoru olmalıdır.

6. Robot avtomatik qapının açılması ilə yarışmanı başlayır və bitiş xəttini keçdikdə bitirir.

7. Hər yarışma qrupundan 1ci olan robot növbəti tura keçir.

8. Robot rəqib robotun xəttinə keçməməlidir. Keçdiyi zaman uduzmuş sayılır.

9. Yarışmaçı robotu başlatma qapısının önünə gətirməlidir və öz robotu üçün nəzərdə tutulmuş xəttin üzərinə qoymalıdır.

10. Hakimin işarəsindən sonra qapı açılacaq və yarışma bağlayacaq.

11. Yarışı başlamayan və ya yanlış xəttə keçən robot uduzmuş sayılacaq.

12. Hakimin işarəsindən əvvəl robot hərəkət edib qapıya yapışarsa robot diskvalifikasiya olunacaq.

13. Xətt döngəsiz düz xətt şəklində olacaq.

14. Xəttin uzunluğu 20 metr qalınlığı isə   2 sm olacaq.

15. Bitiş xəttinə çatmamış bütün robotlar xətdən kənara çıxarsa yarış yenidən başlayacaq.

16. Yarış 2 raund olacaq və əyər 2ci raunddan sonra hesab eyni olsa (1, 1) , qalib üçüncü raundda müəyyən olunacaq.

